# Dəyərli tədqiqat

## *"Qaraçay ədəbiyyatı" kitabı haqqında*

Bakı Slavyan Universitetinin professoru, filologiya elmləri doktoru Nizami Tağısoyun "Qaraçay ədəbiyyatı" adlı yeni kitabı işıq üzü görüb. Azərbaycan ədəbiyyatşünaslığında müxtəlif xalqların ədəbiyyatlarının tədqiqinə dair xeyli elmi-tənqidi məqalələr, monoqrafiyalar mövcuddur. Lakin bizim ədəbi-nəzəri fikrimizdə Qaraçay ədəbiyyatına ilk dəfədir ki, müraciət olunur.

Müasir dövrümüzdə türklərin tarixini, həyatını araşdırmaq istiqamətində böyük canlanma hiss olunur. Dünya mədəniyyəti xəzinəsinə Yusif Balasaqunlu, Mahmud Kaşğari, Nizami, Xaqani, Nəvai, Füzuli kimi dahilər bəxş etmiş türklər bu gün daha yeni, çeşidli elmi istiqamətdə də tədqiq olunmağa tamamilə layiqdirlər.

Qaraçaylılar ən qədim türk tayfalarındandır. Onların tarixi, keçmiş, həyatı heç də asan olmamışdır. Bu xalqın da taleyi digər azsaylı türk xalqlarının taleyinə bənzəyir. Qaraçaylılar eyni zamanda, Qafqazın ən qədim xalqlarından biridir. Bununla belə tale heç də həmişə bu xalqın üzünə gülməmiş və onlar zaman-zaman əsrlərin sınağına çəkilərək min bir məhrumiyyətlərə məruz qalmışlar. Tarixin müxtəlif dövrlərində böyük dövlətlər arasında gedən mübarizələr xalqın taleyinə həlledici neqativ təsir göstərmişdir. "Qaraçay türklərinin tarixi, demək olar ki, əsrlərin dolanbaclarında itib-batmışdır. Çünki bu izi elə itirməyə çalışmışlar ki, onun əski bağlarını müəyyənləşdirmək bizim dövrdə heç də asanlıqla başa gələn deyildir. Eyni zamanda tarixdə Şimali Qafqazda yaşayan türklərin birliyə can atıb yaşamaq istəyində olduğu da nəzərdən qaçırılmamalıdır. Müxtəlif zaman kəsiklərində bu ərazilərdə məskunlaşmış boylar və soylar digərləri içərisində qaynayıb-qarışmaq, əriməklə yanaşı, həm də təşkilatlanmağa səy göstərmişlər. Bu tipli birləşmə və yaxınlaşmalar zamanı boyların bəziləri təmsil olunmamış, bir boyun yerinə digər boylar keçmişlər. Tayfalar bütün bunlara baxmayaraq, heç də tamamilə yox olmamış, yenidən başqa ad altında ortaya çıxmışlar".

Nizami Tağısoyun "Qaraçay ədəbiyyatı" kitabından gətirilmiş nümunələrdə digər məsələlərlə yanaşı, həm də repressiyaya məruz qalmış xalqların sonrakı taleyinə işıq salınır. Bu, eyni dərəcədə, qaraçaylılara və malkarlara da aiddir. Yuxarıda vurğuladığımız kimi, qaraçaylılar və malkarlar Qafqazın ən qədim xalqlarındandır. Lakin tarixin amansız gərdişi nəticəsində bu xalqlar daim haqsız təqiblərə, hücumlara məruz qalmışlar. Yaxşı ki, xalqın iradəsini sona qədər sındırmaq mümkün olmamışdır. Onlar öz içində daim Qafqaz, Elbrus ucalığını qoruyub-saxlamışlar.

Eyni zamanda Qafqaz, Elbrus ucalığı qaraçay-malkar türklərinin dastan və əfsanələrində geniş şəkildə öz əksini tapmışdır. Nisbətən azsaylı olmalarına baxmayaraq, qaraçaylıların və malkarların zəngin şifahi xalq ədəbiyyatı vardır. "Nart" qəhrəmanlıq eposu Şimali Qafqaz xalqları arasında "Dədə Qorqud", "Koroğlu" qədər məşhurdur. "Nart" Şimali Qafqazın "Manası"dır. "Qaraçay ədəbiyyatı" kitabında "Nart" dastanı ilə bağlı aparılan müqayisələr Nizami Tağısoyun dünya xalqlarının epos təfəkkürünə dərindən bələd olmasından xəbər verir. Bu mənada qaraçay-malkar adət-ənənələrinin tədqiqinə xüsusi fəsillərin ayrılması müəllifin problemə düzgün elmi-metodoloji mövqedən yanaşmasından xəbər verir. Bu kitabda adət-ənənələr dastanlarla əlaqəli, ardıcıl və müqayisəli şəkildə tədqiq olunmuşdur. Xaraktercə emosional olan qaraçaylıları, ümumiyyətlə, dünyanın ən sivil xalqları sırasına aid etmək olar. Kitabda böyük-kiçiyin yerini bilmə, yaşlılara hörmət, tərbiyə işlərinə daim ciddi diqqət bu xalqın əsas mənəvi keyfiyyəti kimi vurğulanır. Onların səciyyəvi xüsusiyyətləri sadalanarkən, həm də olduqca səxavətli, nəcib insanlar olduğu, kasıblara, zəiflərə əl tutmaqla fərqləndikləri göstərilir.

Müəllifin araşdırmalarından öyrənirik ki, etnoqrafik mənbələrdə qaraçaylılar ailəcanlı və ailəyə daha çox bağlılığı ilə seçilirlər. Ailədaxili vəziyyətə görə qaraçaylılarda arvad ərinin, kişisinin qulu yox, onun sadiq dostu kimi göstərilir.

Nizami Tağısoyun "Qaraçay ədəbiyyatı" kitabında digər məsələlərlə yanaşı, Qaraçay türklərinin "cır"larına ("nəğmə"lərə) geniş yer verilmişdir. Qaraçay-malkarlar xalqın nəğməsiz yaşamasını evsiz-eşiksiz yaşamaqla müqayisə etmişlər. Bu nəğmələrin əksəriyyəti - "Erirey", "Dolay", "İnay", "Çütçü nəğməsi" və digərləri nəğmələr qədimliyi və koloritliyi ilə seçilir. Eyni zamanda qaraçaylılarda qəhrəmanlıq və əmək nəğmələri də əhəmiyyətli yer tutur. Bu da xalqın tarixi keçmişinin mübarizələrlə zənginliyinə və əməksevərliyinə dəlalət edir.

Təqdirəlayiq haldır ki, Nizami Məmmədov-Tağısoy heç də yalnız qaraçaylıların şifahi xalq ədəbiyyatını araşdırmaqla kifayətlənməmişdir. Kitabda qaraçay-malkarların Mikayıl Şəmsi Baştu (835-900), Tramxan (X-XII əsrlər), Qaşayax Biycə (XV-XVI əsrlər), Kaltur Semyonov (1750-1890), Küçük Bayramukov (1772-1862), Kasbot Koçkarov (1834-1940) kimi yazılı ədəbiyyat nümayəndələrindən bəzilərinin yaradıcılığı təhlil obyektinə çevrilir. Bu baxımdan Nizami Məmmədov-Tağısoy əsil tədqiqatçı məharəti ilə bir çox məsələlərə aydınlıq gətirməyin vacib olduğunu ön plana çəkir və bununla da gələcək araşdırmaların istiqamətini müəyyənləşdirir. Müəllif Qaraçay-malkarların tarixi taleyini keçmiş SSRİ ərazisində yaşayan digər türk xalqlarının faciəvi taleyi ilə də uğurla müqayisə edir, Azərbaycan türklərinin repressiyaya uğradılmış xeyli dəyərli övladları ilə analogiyalar aparır. Qaraçaylılar XX əsrin 20- 30-cu illərində bir neçə dəfə əlifba dəyişmək məcburiyyətində qalmışlar. Bu tipli siyasi və mənəvi repressiyalar qaraçay-malkarların ana dilində ədəbiyyat yaratmaq əzmini qıra, onları haqq yolundan döndərə bilməmiş, buna görə də onlar qısa müddət ərzində "əsrə bərabər yol" keçmişlər.

Nizami Məmmədov-Tağısoyun "Qara-




çay ədəbiyyatı" kitabında qaraçay-malkar ədəbiyyatını, mədəniyyətini yaradan şəxsiyyətlər haqqında qiymətli, dəqiq, müfəssəl, geniş və ətraflı məlumatlar vardır. Mübaliğəsiz demək olar ki, Nizami müəllim qaraçay-malkar ədəbiyyatı tarixini yazan və yaradanlardandır. Bu isə bütün türk xalqlarının, o cümlədən qaraçay-malkarların tarixinə, ədəbiyyatına, mədəniyyətinə böyük sevginin və hədsiz dərəcədə məsuliyyətlə yanaşmanın nəticəsidir. Problemə münasibət sərgilənərkən kitabda Qaraçay ədəbiyyatının elmi-nəzəri məsələlərinin müəllifin nəzər-diqqətindən kənarda qalmadığı görünməkdədir. Eyni zamanda müəllif tərəfindən problemin bu rakursdan işıqlandırılması, həm də gələcək tədqiqatlar üçün açar rolunu oynayacaq fikrini qətiləşdirməkdədir.

Nizami Məmmədov-Tağısoyun "Qaraçay ədəbiyyatı" kitabında xalqın görkəmli şəxsiyyətləri ilə bağlı bir sıra maraqlı bioqrafik və yaradıcılıq məlumatlar verilmişdir. Onların sırasında İslam bəy Krımşamxalov (Teberdiçi), İslam Xubiyev (Qaraçaylı), İssa Qaragetov, Həzrət Urtenov, Davud Bayqulov, Həsən Appayev və digərlərinin müasir Qaraçay poeziyasının, nəsrinin, publisistikasının yaranmasında önəmli rol oynadıqlarına nəzər salınmışdır. Onların dağlılar arasında maarif və mədəniyyət məşəlinin yandırılmasında xüsusi rolu olduğu vurğulanmışdır. Yuxarıda adlarını çəkdiyimiz sənətkarlar mənəviyyat problemlərinə xüsusi diqqət yetirir, xalqın minillik adət-ənənələrinə hörmət etməyi ön plana çəkirdilər.

Nizami Tağısoyun "Qaraçay ədəbiyyatı" monoqrafiyasının məziyyətləri çoxdur "Qaraçay ədəbiyyatı" Nizami Tağısoyun türk xalqlarının tarixinə, mədəniyyətinə, keçmişinə həsr etdiyi ilk və son kitab deyildir. Qarşıda uzun bir yol var...

**Fərrux Məmmədov**